**Reyhan İsgəndər qızı ƏHMƏDOVA**
*Qərbi Kaspi Universiteti, Politologiya, Psixologiya və Sosial iş kafedrasının müəllimi, psixol.ü.f.d.*
E-mail: reyhan.ahmedova@icloud.com

**Ayşən Elşən qızı QULİYEVA**
*Qərbi Kaspi Universiteti, Politologiya, Psixologiya və Sosial iş kafedrasının magistrantı*
E-mail: *ayshenquliyeva13@gmail.com*

# İNTELLEKTUAL İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Təqdim olunan məqalədə intellektual inkişafın mahiyyəti, hansı müəlliflər tərəfindən tədqiq edildiyi, xüsusiyyətləri, növləri, həmin növlər haqqında müəlliflərin yanaşmaları və intellektual inkişaf problemləri nəzəri olaraq araşdırılmışdır. Araşdırılmış nəzəri anlayışlar haqqında bölgülər təqdim edilmişdir. İntellektual inkişafının şəxsiyyətin həyatında nə qədər əsaslı yerdə dayandığı qeyd olunub. Şəxsiyyətin yeriməsi, danışması intellektual göstərici hesab olunur. Ruhi-əsəb xəstələrinin də, həmçinin intellekti müəyyən səviyyədədir. İntellekti aşağı səviyyədə olan şəxslərin Dünya Səhiyyə Təşkilatının hazırladığı Xəstəliklərin Beynəlxalq təsnifatında F seriyasının 70-79 kodlu diaqnozundan əziyyət çəkdiyi məsələsinə toxunulmuşdur. İntellektin səviyyəsi bu diaqnoz zamanı qaldırmaq mümkün olmur. Eyni qayda ilə intellektual inkişafın sosial intellekt və emosional intellekt növləri haqqında elmi məlumatların inkişaf etdirilməsi mütəxəssislər qarşısında duran mühüm problemlərdəndir. Detallı olaraq bu məsələlər məqalə geniş mənada öz əksini tapır.

**Açar sözlər*:*** intellekt, emosional intellekt, sosial intellekt, intellektin növləri

**UOT:** 159.9
**DOI:** https://doi.org/10.54414/HMKB9653

**Giriş**

İntellekt latınca "intellectus" – duyğu, qavrayış, anlama mənasından istifadə olunub.Yeni situasiyalara adaptasiya, təcrübə əsasında öyrənmə, mücərrəd konsepsiyaların anlanılması və tətbiqi, biliklərdən ətraf mühiti idarə etmək üçün istifadəni nəzərdə tutan psixikanın xüsusiyyətidir. O, insanın bütün idrak proseslərini birləşdirən, çətinliklərin dərkinə və həllinə qabil olmaq deməkdir. İntellekt anlayışına müxtəlif prizmalardan yanaşmalar mövcuddur. Onların hamısı intellektin çoxnövlü və çox geniş bir anlayış olduğunu vurğulayır. Bütün elm adamları bir məsələdə həmfikirdirlər ki, intellektin funksiyaları çoxdur və bunları yalnız yeni bilikləri mənimsəmə qabiliyyəti ilə məhdudlaşdırmaq yolverilməzdir. İlk intellekt (İQ) testləri fərqli qabiliyyətli uşaqları fərqli siniflərə və məktəblərə (adi və ya xüsusi təhsil müəssisələrinə) təyin etmək məqsədilə 1904-cü ildə hazırlanmışdı. Zaman keçdikcə testlərin məzmunu əhəmiyyətli dərəcədə dəyişsə də, əsas məqsədi dəyişməz qaldı. Bu testlərin məqsədi intellektin səviyyəsinin ölçülməsi idi. İntellekt testləri uşağın biliyini müəyyənləşdirməklə yanaşı, müəyyən qabiliyyətlərin formalaşmasına da imkan verir (yaxşı danışmaq və sözlərlə işləmək bacarığı, oxşarlıq və fərqlilikləri tapmaq və s.). Bununla yanaşı əldə olunan nəticənin keyfiyyəti deyil, yalnız kəmiyyəti göstərdiyini də unutmamalıyıq. Bu nəticələr uşağın gələcək inkişafı haqqında danışmağımıza imkan vermir və onun konkret nəticələr əldə etməsinin səbəblərini izah etmir. Uşağın intellektinin inkişafı onun bütün cəhətlərini yaxşılaşdırmağa yönəldilir. Buna görə də, məsələn, məktəbdəki müvəffəqiyyəti ilə fərqlənməyən uşaqlar haqqında intellektin aşağı səviyyəsindən danışmaq kökündən səhvdir.

**Əsas hissə**

Hovard Qardner tərəfindən 1983-cü ildə bir intellekt modeli olaraq təklif olunan "Çoxnövlü intellekt" nəzəriyyəsi fərqli inkişaf səviyyəsindəki (istedadlı, zəka geriliyi olan, müxtəlif sinir mənşəli xəstəlikləri olan və s.) çox sayda insan beyni üzərində uzun illər davam edən

araşdırmalara əsaslanaraq o zamana qədər mövcud olan monointellekt konsepsiyasını təkzib etməyə imkan verdi. Bu nəzəriyyə əqli qabiliyyətləri ümumi bir qabiliyyətin üstünlüyü kimi deyil, müxtəlif spesifik şərtlərdə nəzərə alır. Onun nəzəriyyəsindəki zəka sadəcə dil bacarığı və ya riyazi biliklərdən ibarət deyil, bizim asan əldə etdiyimiz bacarıqlar toplusu - qabiliyyətlər hesab olunur. Qardner idrak qabiliyyətinin geniş prizması olduğunu iddia edir. Bu nəzəriyyə zəkanı ölçmür və bütün insanları müəyyən bir səviyyəyə endirməyə çalışmır. Əsas fikir bir insanda bir neçə müstəqil intellektin olmasıdır. İnsanın bacarıqları onun intellekt növlərinin birləşməsindən asılıdır. Bu nəzəriyyə bir insanın İQ testi ilə ölçülə bilən tək bir intellektə sahib olması inancına ziddir. Qardnerə görə öyrənmə prosesində istənilən intellekt növünü inkişaf etdirə bilərsiniz, əsas odur ki, alət və metodları düzgün seçəsiniz. Hovard Qardner “Çoxnövlü intellekt” nəzəriyyəsində aşağıdakı intellekt növlərini bir-birindən fərqləndirmişdir.

1. Verbal-linqvistik intellekt: Dil vasitəsilə biliklərin əldə edilməsi, həm yazılı, həm də şifahi nitqdə dil qaydalarından düzgün istifadə, dilin sosial-mədəni xırdalıqlarını anlama verbal-linqvistik intellektin göstəricilərinə aid edilir. Əgər uşaqda bu intellekt növü güclü inkişaf edibsə, o zaman onun oxumaq, danışmaq və yazmaq bacarıqları da güclü inkişaf edib. Belə uşaqlar sözlər vasitəsilə düşünür, erkən yaşda yazmaq və oxumaq vərdişlərinə yiyələnə bilirlər. Bu zəkaya sahib olan uşaqlar böyük bir söz ehtiyatına sahib olduqları üçün bütün problemləri müzakirə və inandırma yolu ilə həll edir, aldıqları informasiyalarla effektiv işləməyi bacarırlar. Onlar üçün öyrənmənin müzakirə və diskussiya formasında aparılması önəmlidir. Ən yaxşı tədris metodu mətn oxumaq, inşa yazmaq və ya diskussiyalar aparmaqdır. Bu intellekt növünün təzahürləri olan uşaqlar həm xarici, həm də yerli dilləri asanlıqla öyrənə bilirlər.

2. Məntiqi-riyazi intellekt: Təsnif etmək, proqnozlaşdırmaq, tənqidi düşünmək, təhlil edərək nəticə çıxarmaq, müxtəlif mövzularda mühakimə yürütmək, qanunauyğunluqlara əsasən məlumatları analiz etmək, konseptual düşüncə, riyazi çalışmaları və kompleks hesablamaları sürətli həlletmə qabiliyyətləri bu intellekt növü üçün xarakterikdir. Bu intellekt növü yaxşı inkişaf etmiş şagirdlərin maraq dairəsi çox geniş olur, özlərinə maraqlı olan sualların cavabını tapana qədər axtarışda olurlar. Belə şagirdlər həyatlarında baş verənləri anlamaq üçün müxtəlif şablonlardan istifadə edirlər. Bunlara düşüncə, vizual, rəng şablonlarını daxil etmək olar. Məntiqi-riyazi intellekt növü real həyatdakı konkret şablonlarla başlayır, lakin gördüyümüz bütün şablonlar arasındakı əlaqələri başa düşməyə çalışdıqca, get-gedə abstraklaşır. Əgər şagird məntiqi-riyazi intellektə malikdirsə, daha çox konseptual və abstrakt düşünməyə meyilli olur, həmçinin digərlərinin gözdən qaçırdığı şablon və əlaqələri görməyi bacarır. İnkişaf etmiş məntiqi-riyazi intellektə sahib uşaqlar asanlıqla səbəb-nəticə əlaqələrini təyin edir, sistemləşdirməyə can atır, abstrakt məlumatlarla zehni əməliyyatlar aparırlar. Onlar təcrübələr aparmağı, tapmacalar və məsələlər həll etməyi, mövcud şəraitdə insanların davranışlarını təhlil etməyi və nəticə çıxarmağı xoşlayır, rəqəmlər və riyazi düsturlarla işləməyi, riyazi əməliyyatlar aparmağı xoşlayır, müxtəlif qrafiklər və statistik məlumatlarla asanlıqla işləyir, eləcə də, mürəkkəb məsələləri həll etməyin gətirdiyi çətinliyi sevirlər. Sistemli və mütəşəkkil xarakterə malik olmaqla yanaşı, həm də hər bir hərəkət və düşüncələrini həmişə məntiqlə əsaslandırmağı, “niyəsini” izah etməyi bacarırlar.

3. Məkan-vizual intellekti: Məkan-vizual intellekt növü obrazlı düşünmə qabiliyyəti ilə şərtlənir. Bu, gözlərimizlə gördüyümüz forma, şəkil, model, dizayn və teksturalar vasitəsilə, eyni zamanda təxəyyülümüzdə canlandıra bildiyimiz bütün şəkillər vasitəsilə əldə olunan bilikləri təmsil edir. Bu intellekt növü güclü inkişaf etmiş şagirdlər şəkillər və rəsmlər vasitəsilə düşünməyə meyilli olub, rənglərin ahəngliyini hiss edir, obyektlər arasında mövcud olan incə rəngləri, xətləri və münasibətləri, ətrafdakı müxtəlif obyekt, forma, rəng, teksturalar və modelləri çox yaxşı fərqləndirirlər. Vizual-məkan intellekti olan uşaqlar yaxşı inkişaf etmiş motor bacarıqlarına sahibdirlər. Onlar quraşdırmağı, maraqlı dizayn, model və rəsm çəkməyi, rəngləməyi, parçalarla, çertyojlarla, rəngli markerlər və gillə işləməyi sevir, pazllar quraşdırmaqdan, xəritədən istifadə etməkdən və labirint oyunlarından zövq alırlar.

Onlarda məkan anlayışı inkişaf etmiş olur. Müxtəlif məkanlarda xırda detalları asanlıqla yadda saxlayır, cədvəlləri rahatlıqla oxuyur və

diaqramları anlayırlar. Şüurlarında təsəvvür etdiklərini real yaradılmış obyektlərə və məhsullara köçürə bilirlər. Təsəvvürlərində 3D modellər qurub, beyinlərində əvvəlcədən dəyişiklikləri və yerdəyişmələri düşünüb, sonradan onları həyata keçirə bilirlər. Vizual qavrayış müəyyən bilik, bacarıq, emosiya ilə komplekt şəkildə olduqda tanış obrazların yeni görünüşünün yaradılmasına səbəb olur. Onlar ətrafı başqa bucaqdan görə və görüntünün müxtəlif formalarını təklif edə bilirlər.

4. Bədən-kinestetik intellekti: Bu növ intellektin güclü inkişaf etdiyi uşaqlar üçün əsas özünü ifadə aləti onların bədənidir. Hərəkətlər, müxtəlif mimikalar vasitəsi ilə onlar emosiyalarını və fikirlərini rahat ifadə edə bilirlər. Biz tez-tez "edərək öyrənmək" haqqında danışırıq. Bu növ intellekt fiziki hərəkət vasitəsilə inkişaf edir. Zehin və bədənin yüksək koordinasiyası bədən-kinestetik intellektli insanlara xasdır. Bədən-kinestetik intellekti olan uşaqlar dünyanı, ətraf mühiti toxunuşla öyrənirlər. Onlar bədənlərinə yaxşı nəzarət edir, hərəkətlər və jestlər vasitəsilə duyğularını çatdıra bilir, yüksək fiziki fəaliyyət, aydın koordinasiya, çeviklik, toxunma yaddaşına malik olurlar. Qaçmaq, tullanmaq, tarazlıq, elastiklik, bədənlərini mükəmməl hiss etmək, hərəkətləri idarə etmək, rəqs etmək, cisimləri idarə etmək qabiliyyətləri yaxşı inkişaf etmişdir. Onlar ustalıq etməyi və əlləri ilə yaratmağı xoşlayırlar. Onların bacarıqları rəqabət və uğur qazanmaq yolunda çalışmaqla inkişaf edir. Uzun müddət bir yerdə hərəkətsiz oturmaqda çətinlik çəkir, ətrafda baş verən hadisələrdə aktiv iştirak etməyəndə darıxırlar.

5. Musiqi-ritmik intellekt: Musiqi-ritmik intellekt güclü inkişaf etmiş uşaqlarda musiqi, ritm və səsi duyma və qiymətləndirmə qabiliyyəti güclü olur. Bu intellekt səs və vibrasiya vasitəsilə yaranan bacarıqdır. Bu intellekt növü səsin bütün sahələri ilə əlaqəlidir: tonlar, ritmlər və vibrasional şablonlar, musiqi və s. Onlar musiqi əsərlərini elementlərə ayıra və əsərdə səslənən bütün alətləri seçə bilirlər. Musiqi-ritmik intellektin yaxşı inkişaf etdiyi şagirdlər səsləri mükəmməl qəbul edir və ona emosional reaksiya verir, ətraf mühitdə və təbiətdə rast gəlinən səslərə qarşı çox həssas olurlar.

6. Şəxslərarası intellekt: Bu intellekt növünə ətrafdakı insanların əhval-ruhiyyəsini, maraqlarını və hisslərini hiss etmək qabiliyyəti aiddir. Yəni şagird yeni bilikləri insanlarla ünsiyyət vasitəsilə alır. Bu cür uşaqlar üz ifadələrini, səs tembrini və səs tonunu, jestləri incəliklərinə qədər hiss edirlər. Həmçinin bu "siqnallara" qarşı həssas olur və dərhal həmsöhbətinə kömək etməyə çalışırlar. Şəxslərarası intellekt şifahi olmayan (sözsüz) və şifahi (sözlü) ünsiyyət bacarıqlarını əhatə edir. Şəxslərarası intellektin yaxşı inkişaf etdiyi uşaqlar birgə oyunlarda özlərini böyük kimi hiss edir, tez-tez təşəbbüskar rolunda çıxış edirlər. Yaranan münaqişələri düzəldə və ya mövcud olanları həll edə bilirlər. Onlar danışıqlar aparmağı, başqalarını idarə etməyi, hədəflərinə çatmaq üçün qarşılarındakını motivasiya etməyi bacarırlar. Şəxslərarası intellekt insanların ruh halını və istəklərini təyin etmək qabiliyyətini verir. Belə şagirdlər komandada çalışmaqdan zövq alırlar, ona görə də qrupla və ya cütlərlə iş onlar üçün öyrənməyin ən yaxşı yoludur.

Bu intellekt növünə ətrafdakı insanların əhval-ruhiyyəsini, maraqlarını və hisslərini hiss etmək qabiliyyəti aiddir. Yəni şagird yeni bilikləri insanlarla ünsiyyət vasitəsilə alır. Bu cür uşaqlar üz ifadələrini, səs tembrini və səs tonunu, jestləri incəliklərinə qədər hiss edirlər. Həmçinin bu "siqnallara" qarşı həssas olur və dərhal həmsöhbətinə kömək etməyə çalışırlar. Şəxslərarası intellekt şifahi olmayan (sözsüz) və şifahi (sözlü) ünsiyyət bacarıqlarını əhatə edir. Şəxslərarası intellektin yaxşı inkişaf etdiyi uşaqlar birgə oyunlarda özlərini böyük kimi hiss edir, tez-tez təşəbbüskar rolunda çıxış edirlər. Yaranan münaqişələri düzəldə və ya mövcud olanları həll edə bilirlər. Onlar danışıqlar aparmağı, başqalarını idarə etməyi, hədəflərinə çatmaq üçün qarşılarındakını motivasiya etməyi bacarırlar. Şəxslərarası intellekt insanların ruh halını və istəklərini təyin etmək qabiliyyətini verir. Belə şagirdlər komandada çalışmaqdan zövq alırlar, ona görə də qrupla və ya cütlərlə iş onlar üçün öyrənməyin ən yaxşı yoludur.

7. Şəxsdaxili intellekt: Şəxsin öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlamaq və onları aydın şəkildə hiss etmək qabiliyyətidir. Şəxsdaxili intellektin güclü inkişaf etdiyi uşaqlar öz üstün və mənfi cəhətlərini, əhval-ruhiyyələrini, emosiyalarını,

istəklərini obyektiv şəkildə qiymətləndirirlər. Onlar özününizamlama və özünüqiymətləndirmə qabiliyyətləri ilə seçilirlər. Bu intellekt növünün mərkəzində özünə kənardan baxa bilmək və öz həyatı barədə düşünə bilmək imkanı yaradan fərdi refleksiya bacarıqları durur. Bu intellekt növü güclü inkişaf etmiş şagirdlər tək işləməyi sevir və bu xüsusiyyət bəzən onları insanlarla ünsiyyətdən kənarlaşdırır.

8. Naturalist intellekt: Müxtəlif növ flora və fauna növlərini tanımaq və təsnif etmək, təbiətdəki digər obyektləri müəyyənləşdirmək və kateqoriyalara bölə bilmək, müxtəlif təbiət hadisələrini anlayıb dəyərləndirməyi bacarmaq qabiliyyətidir. Bu intellekt növünün güclü inkişaf etdiyi uşaqlar təbiəti, ətraf aləmi və onun fenomenləri ilə ünsiyyətdə olmağı sevirlər. Onlar təbiəti daha yaxından hiss edir, təbiətin iştirak etdiyi hər hansı bir fəaliyyətdən (bitkilərin inkişafını, heyvanlara qulluq və qayğı göstərməklə müşahidə etmək) böyük zövq alır və bununla öyrənirlər. Naturalist intellektli uşaqlar yürüyüşə getməyi, dağlara çıxmağı və bağda işləməyi sevirlər. Onlar uşaqlıqdan ekologiya, heyvanlar və bitkilər aləmi ilə maraqlanırlar. Bu uşaqlar üçün təlim prosesinin qapalı şəraitdə deyil, mümkün qədər tez-tez açıq bir məkanda baş tutması çox vacibdir.

9. Ekzistensial intellekt: Bu intellektin təzahürlərinə fəlsəfi düşünmək qabiliyyəti daxildir. Onlar erkən yaşlarından yüksək səviyyəli düşüncələri ilə fərqlənirlər. Hisslərini anlayır və onları idarə edə bilirlər. Onlar sağlam düşünə bilir və nəticə çıxara bilirlər. Erkən yaşlarından onları insanın yaradılışı, varlığı, həyatın mənası və ölümlə bağlı mövzular maraqlandırır və dünyanın yaranışı ilə bağlı müxtəlif fikirlər irəli sürür, müzakirələr və mübahisələr aparır, başqalarının konsepsiya və fikirlərini araşdırırlar. İlahi elmlər və fəlsəfə ilə dərindən maraqlanır, sağlam düşünərək uzunmüddətli planlar qurur və bu planlara riayət edə bilirlər (10).

**Sosial psixologiyada sosial intellekt anlayışı.**

Sosial intellekt anlayışının geniş təhlili müasir dövrümüzdə olduqca aktual problemlərdən birinə çevrilmişdir. İnsan kapitalının yetişdirilməsinə diqqət ayrıldığı müasir dövrdə, insanın bilik, bacarıq, peşəkarlıq və ünsiyyət əlaqələrindən maksimum dərəcədə istifadə etməsi cəmiyyətin inkişafı üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətin öz imkanlarından bu dərəcədə istifadə etməsi hesab edirik ki, ilk öncə onun sosial intellektinin güclü olmasının nəticəsi hesab edirik. Lakin, daha dəqiq surətdə bu anlayışın nəzəri təhlilini aydınlaşdırmaq üçün onun tarixi təhlilini mütləq formada nəzərdən keçirməliyik (3).

B.D.Pariqinin fikrincə sosial psixologiya aşağıdakı problemləri öyrənir (5, s.7):

a) Şəxsiyyətin sosial psixologiyası;

b) Cəmiyyətin sosial psixologiyası və ünsiyyət;

c) Sosial münasibətlər;

d) Mənavi fəaliyyət formaları

V.N.Myasişev isə hesab edir ki, sosial psixologiya üç məsələni öyrənir 1) Bir-birinə qarşılıqlı təsir göstərən qrupdakı insanların zehni fəaliyyəti, 2) qrupların xüsusiyyətləri, 3) ictimai proseslərin zehni tərəfləri (6, s.14).

1920-ci ildə Kolumbia Universitetinin psixoloqu E.L.Torndayk tərəfindən müşahidələr aparılaraq Arfanın aylıq jurnalında “İntellekt və onun faydası” adlı məqaləsində bu anlayış irəli sürülmüşdür. Torndayk qeyd edirdi ki, bir çox sahələrdə, xüsusilə rəhbərlik sahəsində uğur əldə etmək üçün şəxsiyyətdaxili təsirlilik həyati əhəmiyyət daşıyır. O, yazırdı “fabrikdə olan ən yaxşı mexanik, sosial intellektin əksikliyindən ustabaşı kimi uğursuz ola bilər”. O, intellekti sosial, mexaniki və mücərrəd olaraq 3 tipə bölmüşdür. Və sosial intellekt anlayışı da məhz bu bölgüdən götürülmüşdür. Torndayka görə sosial intellekt “İnsan münasibətlərinin qurulmasında ağıllı formada davranmaqdır”. Bu anlayışı təhlil edərkən aydın olur ki, ağıllı formada davranmaq deyərkən insanları və hadisələri doğru anlamaq, baş verəcək hadisələri və ya münasibətlərdə yaranacaq problemləri qabaqcadan sezə bilmək və bunu bildiyin halda hadisəni istənilən istiqamətə doğru yönləndirə bilmək bacarığı nəzərdə tutulur (9, s.228).

1937-ci ildə Q.Ollport sosial intellekti insanlar haqqında sürətli və avtomatik qərar vermə bacarığı ilə əlaqələndirir. Q.Ollporta görə sosial intellekt sosial adaptasiyanın hansısa məhsulu və anlamanın dərinliyi deyil, insan münasibətlərinin qurulmasında düzgünlük təmin edən “sosial hədiyyədir” (7).

1995-ci ildə H.Ayzenk və O.Kont sosial intellektin sosial təbiətini vurğuladı və həmçinin

əlavə etdi ki, sosial intellekt başqa insanları anlamaq bacarığı və öz gözləri ilə özünü görə bilmək bacarığıdır (4, s.111-113).

D.H.Silvera, M.Martinussen və T.İ.Dahl 2001-ci ildə sosial intellektin yeni xüsusiyyətlərini aşkar etmiş oldular. Bu xüsusiyyətlər əsasında məlum oldu ki, sosial intellektin ən faktoru vardır: sosial bilik, sosial anlama, sosial bacarıq (8, s.313-319).

**Emosional intellekt anlayışı.** İlk dəfə "Emosional inkişaf" anlayışı D.Qaulmanın, C.Meyerin, P.Seloveyin pedoqoji-psixoloji elmi əsərlərində səslənməyə başlandı. E.Torndaykın əsərlərində bu anlayış əsasən sosial intellektin formalaşmasına xidmət edirdi, insanda ətrafdakıları daha yaxşı anlamaq,ünsiyyətə girmək bacarığını formalaşdırmağa imkan yaradırdı. Emosional intellektin asas funksiyası davranışları öncədən proqnoz etmək və ətrafdakı insanların reaksiyalarını təxmin etməyi bacarmaqdır. D.Qaulman öz əsərlərində qeyd edir ki,insanın gələcək həyatında müvəffəqiyyətin əldə olunmasında emosional zəkanın çox böyük əhəmiyyəti vardır (1. s.68).

D.Qaulmana görə emosional zəka:

-Özünü hər hansı bir iş üçün səfərbər etmək;

-Müvəffəqiyyətsizliklərə baxmayaraq, yoluna davam etmək;

-Əhval-ruhiyyəmizi tənzimləmək

-Çətinliklərin icazə düşüncələrimizi əngəlləməsinə verməmək;

-Başqalarının hisslərini anlamaq (empatiya);

−Ümidvar olmaq bacarığıdır.

M.A.Manoylova emosional intellekti başqalarının özünün hisslərini idarə etmək və başa düşmək kimi təqdim edir. Bunun da ən vacib göstəriciləri empatiya qurmaq, şəxsi ləyaqət hissini formalaşdırmaq və səbr etməkdir (2; 81).

**Nəticə**

Beləliklə, bir çox ədəbiyyatlarda aparılmış araşdırma nəticəsində intellektual inkişaf şəxsiyyətin ən ilkin bacarıq və qabiliyyətlərinin inkişafında ən vacibli məqamı hesab olunur. Şəxsiyyətin fizioloji quruluşuna əsasən düz dayanması bellə intellektin göstəricisi hesab olunur. Həmçinin fiziki hərəkətin, nitqin, əqli nəticənin olmasıda bu fikiri təsdiqləyir. Dünya Səhiyyə Təşkilatının hazırlamış olduğu Xəstəliklərin Beynəlxalq Təsnifatınfa F seriyası üzrə nəzərdə tutulmuş 70-79 kodlu Əqli gerilik diaqnozunun əsas göstəricisi kimi intellektin kəmiyyət olaraq neçə olmasıdır. Müəlliflər tərəfindən müxtəlif formada nəzəriyyələrin, yanaşmaların, tədqiqatların olması intellekt anlayışının aktuallığını bizə sübut edir. Həmçinin intellekt nəticəsində yaranmış problemlərin həll yolunun tapılması, aradan qaldırılması məsələləri hələ də araşdırılır və tədqiqatlar aparılır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. Bakı, 2005. s.217
2. Abbasov A. Milli əxlaq və ailə tərbiyəsi. Bakı,2000.s.295
3. Dəmirova C. Sosial İntellekt Sosial Psixologiyanın müasir problem kimi. Bakı, 2019. ADU Elmi xəbərlər, № 2
4. Айзенк Г. Ю. Интеллект: новый взгляд//Вопросы Психологии. 1995. № 1. С.111-113
5. Парыгин Б.Д. Основы социально-психологической теории. М., 1971.
6. Мясищев В.Н. Личность и неврозы. М., 1949
7. Allport G. W. Pattern and growth in personality. New York: Holt, Rinehart and Winston. 1961
8. Silvera D. H., Martinussen M. ve Dahl T. İ. The Tromso Social İntelligence Scale, a Self-Report Measure of Social İntelligence. Scandinavian Journal of Psychology, 2001. (42), 313-319.
9. Thorndike Edward, L (1920) Intelligence And Its Use Harper‟s Monthly Magazine, 140, S.227–35
10. https://www.arti.edu.az/az/presentation/842-hovard-qardner-quot-coxnovlu-intellekt-quot-nazariyyasi
11. http://www.howardgardner.com/MI/mi.html
12. https://www.howardgardner.com/selected-research-papers
13. http://www.thomasarmstrong.com/multiple_intelligences.htm
14. https://howardgardner01.files.wordpres.com/2016/04/472-multiple-intelligences-reflections-after-30-years.pdf

**Рейхан Искандер кызы АХМЕДОВА**
*Западно-Каспийский Университет,*
*преподаватель кафедры Политологии, Психологии и Социальной работы, к.психол.н.*
E-mail: reyhan.ahmedova@icloud.com

**Айшан Эльшан кызы ГУЛИЕВА**
*Магистрант кафедры Политологии, Психологии и Социальной работы*
*Западно-Каспийского университета*
E-mail: ayshenguliyeva13@gmail.com

## ХАРАКТЕРИСТИКИ ИНТЕЛЛЕКТУАЛЬНОГО РАЗВИТИЯ

**Резюме**

В представленной статье теоретически исследовано, что такое интеллектуальное развитие, какие авторы его исследовали, его особенности, виды, подходы авторов к этим видам, проблемы интеллектуального развития. Дана разбивка исследуемых теоретических концепций. Отмечено, насколько важно интеллектуальное развитие в жизни личности. Ходьба и речь личности считается интеллектуальным показателем. Психически-нервные больные также обладают определенным уровнем интеллекта. Был затронут вопрос о людях с низким уровнем интеллекта, страдающих кодовым диагнозом серии F 70-79 по Международной классификации болезней, подготовленной Всемирной организацией здравоохранения. Уровень интеллекта не может быть повышен во время этого диагноза. По тому же правилу специалисты могут развивать типы интеллектуального развития социального интеллекта и эмоционального интеллекта. Подробно эти вопросы отражены в статье в широком смысле.

**Ключевые слова:** интеллект, эмоциональный интеллект, социальный интеллект, виды интеллекта.

**Reyhan Iskander AKHMEDOVA**
Western Caspian University, lecturer at the Department of Political Science, Psychology and Social Work, Ph.D.
E-mail: reyhan.ahmedova@icloud.com

**Ayshan Elshan gizi GULİYEVA**
Master's student of the Department of Political Science, Psychology and Social Work,
Western Caspian University
E-mail: ayshenguliyeva13@gmail.com

## CHARACTERİSTİCS OF İNTELLECTUAL DEVELOPMENT

**Summary**

In the presented article, what is intellectual development, which authors have researched it, its characteristics, types, approaches of authors about those types, and problems of intellectual development have been theoretically investigated. A breakdown of the investigated theoretical concepts is given. It has been mentioned how important the intellectual development is in the life of the personality. The personality's walking and talking is considered an intellectual indicator. Mental-nervous patients also have a certain level of intelligence. It was touched on the issue of people with low level of intelligence suffering from the code diagnosis of F series 70-79 in the International Classification of Diseases prepared by the World Health Organization. The level of intelligence cannot be raised during this diagnosis. By the same rule, it is possible for experts to develop social intelligence and emotional intelligence types of intellectual development. In detail, these issues are reflected in the article in a broad sense.

**Keywords:** intelligence, emotional intelligence, social intelligence, types of intelligence.
**Daxil olub:** 02.01.2023